| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **07.02.2023** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **134s** |
| **ADI** | **"Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı (Dərc olunma tarixi: 07.02.2023)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **07.02.2023** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **190.010.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **33202302070134** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **10.02.2023** |

**“Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RES7PUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

“Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 6 dekabr tarixli 3632 nömrəli Sərəncamının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə:

1. “Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi müəyyən edilsin.

3. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlər Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində aidiyyəti icraçı qurumlar üçün ayrılmış vəsaitlər və qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilsin.

4. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinə həvalə edilsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 7 fevral 2023-cü il
134s

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 7 fevral tarixli 134s nömrəli Sərəncamı ilə
təsdiq edilmişdir.

**Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı**

**Tədbirlər Planı**

| Sıra-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar |
|---|---|---|---|
| **1.** | “Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023” ilinin rəsmi açılışı | 2023-cü il mart | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **2.** | “Xarıbülbül” VI Beynəlxalq Folklor Festivalının keçirilməsi | 2023-cü il may | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **3.** | “Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı” ili ilə bağlı internet resurslarının və xatirə materiallarının hazırlanması:<br>- “Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023” ili ilə əlaqədar poçt markalarının və xatirə nişanının hazırlanması;<br>- Şuşa şəhərinin elektron xəritəsinin və mobil tətbiqinin hazırlanması;<br>- “Türk dünyasının mədəniyyət paytaxtı - Şuşa” portalının yaradılması. | 2023-cü il ərzində | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |

| | | | |
|---|---|---|---|
| **4.** | Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun təşkili və bu çərçivədə:<br>- Beynəlxalq Türk Akademiyası ilə birgə türk dünyasında ortaq mədəni irsin, tarix-memarlıq abidələrinin qorunması, bərpası və tanıdılmasına həsr olunmuş tədbirin təşkili;<br>- TÜRKSOY-a üzv ölkələrin UNESCO Milli Komissiyalarının 9-cu Toplantısının təşkili;<br>- Türk Dünyasının Mədəni Marşrutu layihəsinin təqdimatı;<br>- Türk dünyası mədəniyyət paytaxtlarının Şuşa şəbəkəsinin yaradılması və ilk görüşünün keçirilməsi;<br>- TÜRKSOY Muzeylər Birliyinin toplantısının keçirilməsi. | 2023-cü il may-iyun | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **5.** | Türk dünyasının tanınmış şair və yazıçılarının iştirakı ilə ədəbi-bədii tədbirlər:<br>- Vaqif poeziya günləri çərçivəsində TÜRKSOY-a üzv ölkələrin şairlərinin görüşünün keçirilməsi;<br>- Mir Möhsün Nəvvab Qarabağinin 190 illiyinə həsr olunmuş sərginin təşkili və "Mir Möhsün Nəvvab Qarabağinin silah kolleksiyası" adlı kitab-kataloqun təqdimatı;<br>- "Məclisi-üns" ədəbi məclisinin təşkili. | 2023-cü il iyul- sentyabr | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **6.** | TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası ilə birgə layihələrin keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **7.** | Şuşada TÜRKSOY fotoqraflar və rəssamlar düşərgəsi | 2023-cü il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **8.** | Şuşa şəhərində beynəlxalq uşaq yaradıcılıq festivalının keçirilməsi | 2023-cü il iyun | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **9.** | "Wonderland Şuşa 2023" beynəlxalq skaut düşərgəsi | 2023-cü il ərzində | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **10.** | "Şuşa yaradıcılıq emalatxanası" beynəlxalq gənclər düşərgəsi | 2023-cü il ərzində | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **11.** | Türk dünyası diaspor gənclərinin görüşünün təşkili | 2023-cü il sentyabr | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **12.** | TÜRKSOY Media Mükafatının (2022-ci ilin yekunlarına dair) təqdimatı | 2023-cü il ərzində | Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |

| | | | |
|---|---|---|---|
| **13.** | TÜRKSOY Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbəti iclasının keçirilməsi və mədəni tədbirlərin təşkili:<br>- "Four seasons of Shusha" layihəsi çərçivəsində ilin dörd fəslində xarici fotoqraflar tərəfindən Şuşada lentə alınmış fotolardan ibarət sərginin təşkili;<br>- Türk dünyası musiqiçilərindən ibarət yığma orkestrin konserti. | 2023-cü il oktyabr | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **14.** | Türk dünyası xalqlarının adət və ənənələrini özündə əks etdirən tədbirlərin təşkili:<br>- Türk dünyası xalqlarına məxsus qədim idman növlərinin nümayiş etdirilməsi;<br>- Türk dünyası xalqlarının kulinariya günlərinin keçirilməsi;<br>- Türk dünyası dövlətlərinin aktiv və mədəni turizm sahəsində səyahətçi, bloger və digər şəxslərin Şuşaya səfərlərinin təşkili. | 2023-cü il ərzində | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **15.** | "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" ili çərçivəsində beynəlxalq konfrans, elmi seminar və digər tədbirlərin keçirilməsi:<br>- "Türk dünyası: ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış" mövzusunda beynəlxalq konfransın keçirilməsi;<br>- "Əhməd bəy Ağaoğlu və Türk dünyası" mövzusunda beynəlxalq konfransın keçirilməsi;<br>- "Şuşa Türk dünyası tarixində" mövzusunda beynəlxalq konfransın keçirilməsi;<br>- "Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminarın keçirilməsi;<br>- "Xarıbülbül əfsanəsi" sənədli filminin təqdimatı. | 2023-cü il ərzində | Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi |
| **16.** | "Qorqud Ata Türk Dünyası" Film Festivalının keçirilməsi | 2023-cü il oktyabr | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **17.** | "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin rəsmi bağlanışı | 2023-cü il noyabr-dekabr | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |